# Ali məktəblərə qəbul imtahanlarında ən yüksək bal toplayan məzunlar rayon icra hakimiyyətinin başçısı tərəfindən qəbul edilmişdir



Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayev ali məktəblərə I-II-III ixtisas qrupları üzrə qəbul imtahanları zamanı ən yüksək bal toplayan məzunlarla görüşmüşdür.

RİH-də keçirilən görüşə III ixtisas qrupu üzrə 700 bal toplamış Vəndam qəsəbə 1 saylı tam orta məktəbin məzunu Xəyalə Rəvan qızı Əfəndiyeva, I ixtisas qrupu üzrə 695 bal toplamış Həmzəli kənd tam orta məktəbin məzunu Siracbəyli Zöhrə Kamran qızı və IV ixtisas qrupu üzrə 695 bal toplamış Qəbələ şəhər 1 saylı tam orta məktəbin məzunu Şirinbəyli Təranə Seymur qızı dəvət edilmişdi.

Görüş zamanı Xəyalə Əfəndiyeva Azərbaycan Respublikasının Prezidenti Yanında Dövlət İdarəçilik Akademiyasına, Zöhrə Siracbəyli Qafqaz Universitetinə, Təranə Şirinbəyli isə Azərbaycan Dövlət Tibb Universitetinə daxil olduqlarını rayon icra hakimiyyətinin başçısına bildirmişlər.

Görüşdə cənab Səbuhi Abdullayev sosial-iqtisadi inkişaf yollarında sürətlə irəliləyən müstəqil Azərbaycanın daha da çiçəklənməsi, tərəqqisi naminə bacarıqlı, savadlı kadr potensialı yetişdirilməsi zərurətindən danışmış, gənclərə təhsil almaq, iş yerləri ilə təmin olunmaq, onlara öz qabiliyyətlərini və istedadlarını üzə çıxarmaq üçün dövlət tərəfindən hər cür qayğının göstərildiyini bildirmiş, məzunlara ölkənin layiqli vətəndaşları kimi yetişmək, rayonumuza öz işini mükəmməl bilən mütəxəssis kimi geri dönməyi arzulamışdır.

Qəbələ Rayon İcra Hakimiyyətinin Fəxri Fərmanı ilə təltif olunmuş hər üç məzuna görüşün sonunda qiymətli xatirə hədiyyələri təqdim edilmişdir.

**Zahir KƏRİMOV,**
**Foto İ. Vəlizadənindir.**

# Böyük Azərbaycan müğənnisi

Bu günlərdə Müslüm Maqomayevin xatirəsini əziz tutanlar, onu daim xatırlayanlar əfsanəvi müğənninin anadan olmasının 73-cü ildönümünü qeyd etmişlər. Azərbaycanda vokal sənətinin inkişafında əvəzsiz rolu olan unudulmaz ustad 1942-cii il avqustun17-də Bakıda anadan olub. Forte-piano sinfi üzrə orta musiqi, sonra Asəf Zeynallı adına musiqi məktəbini, vokal sinfi üzrə Bakı Konservatoriyasını bitirib. Müslüm Maqomayev ilk dəfə 1962-ci ildə Helsinkidə keçirilən gənclər festivalında diqqəti cəlb edib. O. «Buhenvald harayı» və «Ruslar müharibə istəyirlərmi?» mahnılarının ifasına görə festivalın laureatı olub. 1963-cü ildə öz konsertləri ilə sözün əsl mənasında Moskvanı fəth edib. Onun çıxışları böyük əks-səda yaradıb. Müslüm Maqomayev estrada mahnıları ilə opera ariyalarını eyni dərəcədə gözəl ifa edirdi. 1964-cü ildə Milanın «La-Skala»Teatrında staj keçmək üçün bir il müddətində İtalliyada olub.

Milandan sonra Müslüm Maqomayev «Toska» və «Sevilya bərbəri» operaları ilə Sovet İttifaqının ən iri şəhərlərində çıxış edib. 1966-cı və 1969-cu illərdə Parisin məşhur «Olimpiya Teatrı»nda Müslüm Maqomayevin qastrolları böyük uğur qazanıb. M. Maqomayev 1969-cu ildə Sopot festivalında birinci mükafata layiq görülüb.

1973-cü ildə ona SSRİ Xalq artisti adı verilib. M. Maqomayev 1975—1989-cu illərdə özünün yaratdığı Azərbaycan Dövldət Estrada Simfonik Orkestrinin bədii rəhbəri olub.

Müğənni sovet televiziyasında daim əsas hökumət konsertlərində və bayram proqramlarında iştirak edib. «Bremen musiqiçilərinin izi ilə» (1973-cü il) populyar cizgi filminin qəhrəmanı Tribokdur məhəbbət serenadasını Maqomayevin səsi ilə oxuyur.

Müslüm Maqomayevin Diskoqrafiyasına 45-dən çox qrammofon valı, habelə 15 kompakt-disk, o cümlədən «Sənə minnətdaram» (1995), «Opera və müziklərdən apriyalar, Neapol mahnıları» (1996) Sovet estradasının ulduzları kimi əsərlər daxildir.

Onun xidmətlərini sadalamaqla bitmir. Əsas məsələ budur ki, M. Maqomayevin bənzərsiz yaradıcılığı planetimizdə saysız-hesabsız insanın qəlbində silinməz iz buraxıb.

**Aslan CƏLİLOV.**

# Növbəti parlament seçkiləri ilə əlaqədar maarifləndirmə kursu başa çatdı

Avqustun 24—26-da 116 saylı Qəbələ seçki dairəsi dairə seçki komissiyasında komissiyanın katibləri, üzvləri və məntəqə seçki komissiyalarının sədrləri üçün seçki hüququ üzrə ixtisaslaşdırılmış kurs keçirilib. Kurs Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 27 dekabr tarixli sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı» na əsasən aşağı seçki komissiyalarının üzvlərinin maarifləndirilməsi məqsədilə bütün respublikanı əhatə edən layihənin ikinci mərhələsi çərçivəsində keçirilmişdir.



Kursun işini giriş sözü ilə açan Qəbələ 116 saylı dairə seçki komissiyasının sədri Ramiz Əsədov bildirmişdir ki, növbəti parlament seçkiləri ölkəmizin həyatında mühüm rol oynayır. Seçki prosesinin mövcud qanunlara uyğun demokratik və şəffaf keçirilməsi ölkəmizin beynəlxalq aləmdə nüfuzunun daha da artmasına xidmət etməklə yanaşı, xalqın öz seçdiyi hakimiyyət orqanına inamını, etibarını, güvəncini daha da yüksəldəcəkdir. Qəbələ rayonunda seçkilərlə əlaqədar aparılan hazırlıq işləri onu deməyə əsas verir ki, əvvəlki seçkilər kimi növbəti parlament seçkiləri də rayonumuzda yüksək təşkilati fəallıqla keçəcək.




Qəbələ Rayon İcra hakimiyyəti başçısının müavini Ətayə Osmanova «Seçici siyahıları ilə işin aparılması, seçkiqabağı təşviqatın aparılmasına şəraitin yaradılması, bildirişlərin seçicilərə çatdırılması və s, bu kimi istiqamətlərdə yerli icra və bələdiyyə qurumlarının rolu və onların seçki komissiyaları ilə səmərəli qarşılıqlı əlaqələrinin qurulması» mövzusunda çıxış edib. İştirakçıların nəzərinə çatdırılıb ki, Qəbələ rayonundakı seçki məntəqələrində hazırlıq işləri Mərkəzi Seçki Komissiyasının (MSK) təlimatları üzrə aparılıb. Məntəqələrin maddi texniki təchizatında heç bir problem yoxdur.

Mərkəzi Seçki Komissiyasının üzvü Qabil Orucov «Seçki prosesində KİV-lərin rolu, yerli və xarici müşahidəçilərin hüquq və vəzifələri mövzusunda danışarkən qeyd etdi ki, qanunvericiliyə əsasən seçki günü məntəqələrdə görülən işin səsvermə prosesinin cəmiyyətə çatdırılması üçün yerli və xarici müşahidəçilərə, KİVlərə lazımi şərait yaradılmalı, eyni zamanda onlar da işlərini mövcud qanunvericiliyə uyğun qurmalıdırlar.

**(Ardı 8-ci səhifədə).**